# AZƏRBAYCAN RESPUBLİKASININ
# ENERGETİKA NAZİRLİYİ

# Ə M R

№ 3-15/3-2-148/2024

Bakı şəhəri "19" mart 2024 il

**"Elektrik qurğularının istismara buraxılış aktının verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"nin 4.5.8-ci yarımbəndinə əsasən Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən təqdim edilmiş təklifləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Elektrik qurğularının istismara buraxılış aktının verilməsi Qaydaları" təsdiq edilsin.
2. Energetika Nazirliyinin 14.10.2022-ci il tarixli F-104 nömrəli əmri ilə təsdiq edilmiş "Elektrik qurğularının istismarına buraxılış aktının verilməsi Qaydaları" ləğv edilsin.
3. Ümumi şöbə bu Əmrin surətinin Nazirliyin aidiyyəti struktur bölmələrinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.
4. Bu Əmrin icrasına nəzarət Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İdarə Heyətinin sədrinə həvalə edilsin.

**Nazir** **Pərviz Şahbazov**

Azərbaycan Respublikası Energetika Nazirliyinin
"19" mart 2024-cü il tarixli
"3-15/3-2-148/2024" nömrəli Əmri ilə təsdiq edilmişdir.

## Elektrik qurğularının istismara buraxılış aktının verilməsi QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Lisenziyalar və icazələr haqqında" və "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin 22.12.2017-ci il tarixli 1750 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"nə, 16.07.2018-ci il tarixli 204 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"na uyğun olaraq hazırlanmışdır və Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (bundan sonra – **Agentlik**) filialları (bundan sonra – **Filial**) tərəfindən yeni, yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan və elektrik enerjisinin təminat sxemini dəyişən 200 kVt-dan yuxarı elektrik qurğularının istismara buraxılış aktının (bundan sonra – **istismara buraxılış aktı**) verilməsi ilə bağlı ərizənin qəbulu, qeydiyyata alınması, elektrik qurğularına baxış keçirilməsi, istismara buraxılış aktının verilməsi və ya verilməsindən imtina olunması və hesabatlılıq ilə bağlı Agentlikdaxili münasibətləri tənzimləyir.

1.2. Bu Qaydaların məqsədləri üçün aşağıdakı ixtisar sözlərdən istifadə olunur:

1.2.1. **İBA** - Qanunla müəyyən edilən güc həddindən yuxarı elektrik qurğularının istismara buraxılış aktı;

1.2.2. **TMD** – Agentliyin Enerji tənzimləmə və monitorinq departamenti.

1.3. Bu Qaydaların məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:

1.3.1. **qeydiyyatçı** – Filial rəhbəri tərəfindən müəyyən edilən və ərizələrin ilkin yoxlanmasını və qeydiyyatını həyata keçirən Filial əməkdaşı;

1.3.2. **müfəttiş** – Filial rəhbəri tərəfindən iş yükünü və ixtisasını nəzərə alaraq hər bir konkret ərizə üzrə icraatın həvalə edildiyi, Agentlikdə müfəttiş vəzifəsini tutan və Filialın əməkdaşı olan fiziki şəxs;

1.3.3. **sifarişçi (ərizəçi)** – İBA verilməsi nəzərdə tutulan elektrik qurğusunun yerləşdiyi sahəyə mülkiyyət (sahiblik) və ya digər əşya hüququ əsasında sahiblik edən hüquqi və ya fiziki şəxs olan istehlakçı;

1.3.4. **baxış** – İBA verilməsi üçün təqdim edilmiş ərizədəki məlumatların faktiki hallara uyğunlaşdırılması üçün İBA veriləcək elektrik qurğularının yerləşdiyi yerə (tikinti obyektinə) gəlməklə görülən və nəticələrin aktlaşdırılması ilə həyata keçirilən tədbir;

1.3.5. **ərizə** – İBA verilməsi üçün sifarişçinin təqdim etdiyi yazılı müraciət və ona əlavə edilən sənədlərin məcmusu.

1.4. Bu Qaydalarla müəyyən edilən sənədləşmə Elektron Sənəd Dövriyyəsi Sistemi vasitəsilə həyata keçirilir.

## 2. Ərizənin qəbulu və qeydiyyata alınması

2.1. Ərizə Filiala daxil olduğu gün qeydiyyatçı onu (əlavələri ilə birlikdə) qeydiyyata alır və həmin gün Filialın rəhbərinə təqdim edir.

2.2. Filial rəhbəri ərizə onun icraatına daxil olduqdan sonra 1 (bir) iş günü müddətində müfəttişlərin iş yükü və xüsusi bilikləri nəzərə alınaraq, icra üçün müfəttişə göndərir.

2.3. Müfəttiş ərizə onun icraatına daxil olduqdan sonra 1 (bir) iş günü müddətində ərizəyə aşağıdakıların qoşma şəklində əlavə edildiyini və onların mahiyyətinin texniki normativ hüquqi aktların tələblərinə uyğunluğunu yoxlayır:

2.3.1. sifarişçi (ərizəçi) hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti;

2.3.2. sifarişçi (ərizəçi) fərdi sahibkar olduqda, şəxsiyyət vəsiqəsinin surəti;

2.3.3. sifarişçinin (ərizəçinin) vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;

2.3.4. ərizədə qeyd olunan obyektlərdən hər biri üzərində sifarişçinin (ərizəçinin) mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti;

2.3.5. sistem operatorunun və ya istehsalçının verdiyi texniki şərtlər;

2.3.6. sistem operatoru və ya istehsalçı ilə razılaşdırılmış elektrik enerjisinin təminatı layihəsi;

2.3.7. tikinti-quraşdırma işlərini aparmış şəxslə sifarişçi arasında təhvil-təslim aktı;

2.3.8. elektrik təsərrüfatına cavabdeh şəxsin təyin olunması barədə əmrin (qərarın, sərəncamın) surəti;

2.3.9. kontur torpaqlama müqavimətinin ölçülməsi protokolu;

2.3.10. transformatorun və avadanlıqların sınaq-sazlama protokolu;

2.3.11. elektrik veriliş xəttinin sınaq protokolu və qapalı işlər aktı;

2.3.12. elektrik sayğacının quraşdırılması aktı.

2.4. Ərizənin qanunvericiliyin tələblərinə cavab verib-verməməsi barədə müfəttiş Filial rəhbərinə məlumat verir.

2.5. Ərizə qanunvericiliyin tələblərinə cavab vermədikdə və ya ərizədə tapılmış qüsurlar həmin ərizədə qeyd olunmuş tikinti obyektində quraşdırılmış elektrik qurğularına baxış keçirilməsinə əsas vermirsə Filial rəhbəri İBA verilməsindən imtinaya səbəb olan ərizədəki qüsurlar qeyd olunmaqla imtina haqqında sifarişçiyə (ərizəçiyə) cavab məktubu hazırlanmasına göstəriş verir.

2.6. Ərizə qanunvericiliyin tələblərinə cavab verdikdə və ya ərizədə tapılmış qüsurlar həmin ərizədə qeyd olunmuş tikinti obyektində quraşdırılmış elektrik qurğularına baxış keçirilməsinə əsas verirsə (texniki şərt və razılaşdırılmış elektrik enerjisinin təminatı layihəsi təqdim olunubsa) Filial rəhbəri elektrik qurğularına baxış keçirilməsi barədə müfəttişə göstəriş verir. Bu halda ərizədə, həmçinin elektrik qurğularına baxış keçirilməsi nəticəsində İBA verilməsindən imtinaya əsas olan hallar aşkar edildikdə, qüsurlar (sənədlərdə və tikinti obyektində olan qüsurlar) qeyd olunmaqla imtina haqqında sifarişçiyə (ərizəçiyə) cavab məktubu hazırlanır.

2.7. İBA verilməsindən imtina barədə cavab məktubu ərizədə, həmçinin elektrik qurğularına baxış keçirilərkən aşkar edilmiş bütün qüsurların mahiyyəti və istinad

edilən normativ-hüquqi aktın adı və struktur elementi göstərilməklə və inzibati və məhkəmə qaydasında şikayət etmək hüququnun olması qeyd edilməklə 2 (iki) iş günü müddətində sifarişçiyə (ərizəçiyə) təqdim edilir və ya xəbərnaməli sifarişli poçt vasitəsilə göndərilir.

2.8. Aşkar olunmuş qüsur aradan qaldırıldıqdan sonra təqdim edilmiş ərizəyə bu Qaydalara uyğun olaraq yenidən baxılır.

## 3. Elektrik qurğularına baxış keçirilməsi

3.1. Filial rəhbərinin dərkənarı əsasında 2 (iki) iş günü müddətində müfəttiş tərəfindən sifarişçinin iştirakı ilə aşağıdakıların yoxlanılması üçün baxış keçirilir:

3.1.1. elektrik xətlərinin çəkilməsinin və tikinti-quraşdırma işlərinin texniki şərtlərin və elektrik enerjisinin təminatı layihəsinin tələblərinə uyğunluğu;

3.1.2. elektrik xətlərinin çəkilməsinin və tikinti-quraşdırma işlərinin "Elektrik qurğularının quraşdırılması Qaydası"nın tələblərinə uyğunluğu.

3.2. Baxış keçirildiyi gündən gec olmayaraq həmin baxışın nəticələrinə dair bu Qaydanın 1 nömrəli Əlavəsinə uyğun olaraq yerində baxış aktı tərtib edilir, həmin akta qüsurluluq və ya qüsursuzluq barədə (bu Qaydaların 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərinin tələblərinin faktiki vəziyyəti ardıcıl olaraq qeyd edilməklə) qeyd yazılır, müfəttiş tərəfindən imzalanır və imzalanmaq üçün baxışda iştirak edən şəxslərə (və ya onların nümayəndələrinə) təqdim edilir. Aktı imzalamaqdan imtina edildikdə bu barədə aktda qeyd aparılır.

## 4. İBA-nın verilməsi və ya verilməsindən imtina olunması

4.1. Baxış zamanı qüsur aşkar olunmadıqda müfəttiş bu barədə baxış aktını və İBA verilməsinin mümkünlüyünü qeyd etməklə məlumatı xidməti məktubla Filial rəhbərinə təqdim edir.

4.2. Filial rəhbəri İBA verilməsinin mümkünlüyü qeyd edilmiş xidməti məktub daxil olduğu gün qüsurun olmamasına əmin olduqda, onun dərkənarı əsasında 2 (iki) iş günü müddətində müfəttiş tərəfindən (sonradan texniki (texnoloji) dəyişiklik nəticəsində gücü artırılmış və ya azaldılmış elektrik qurğularına münasibətdə bundan əvvəl verilmiş İBA-nın qanunvericiliyə uyğun ləğv edilməsi nəzərə alınmaqla) İBA tərtib edilib Filial rəhbərinin imzasına təqdim edilir.

4.3. Müfəttiş tərəfindən İBA verilməsi üçün dövlət rüsumunun ödənilməsi vəzifəsi barədə sifarişçiyə (ərizəçiyə) şifahi və ya Filial rəhbərinin imzası ilə yazılı formada məlumat verilir.

4.4. Sifarişçi (ərizəçi) dövlət rüsumunun ödənilməsi barədə təsdiqedici sənədi 5 (beş) iş günü müddətindən gec olmayaraq təqdim etdikdən sonra İBA 2 (iki) iş günündən gec olmayaraq, Filial rəhbəri tərəfindən təsdiq edilərək sifarişçiyə təqdim edilir və ya xəbərnaməli sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Dövlət rüsumunun ödənilməsi barədə təsdiqedici sənəd müəyyən edilmiş müddətdə Filiala təqdim edilmədikdə, İBA verilməsindən imtina olunur və əsaslandırılmış cavab məktubu 2 (iki) iş günü müddətində sifarişçiyə təqdim edilir və ya xəbərnaməli sifarişli poçt vasitəsilə göndərilir.

4.5. Ərizənin və İBA verilməsi üçün ərizənin verilməsindən sonra təqdim olunmuş sənədlərin, o cümlədən İBA-nın (sonradan yarana biləcək mübahisəli məsələlərin həlli üçün) surəti Filialda saxlanılır.

4.6. Baxış zamanı müfəttiş İBA verilməsindən imtinaya səbəb olan qüsur aşkar etdikdə bu barədə Filial rəhbərinin adından sifarişçiyə həmin qüsurun aradan qaldırılması üçün pozuntunu və istinad edilən normativ hüquqi aktın struktur elementini göstərməklə, məktub layihəsini hazırlayıb Filial rəhbərinə təqdim edir.

4.7. Filial rəhbəri aşkar olunmuş qüsurun aradan qaldırılması üçün məktub layihəsini aldıqdan 2 (iki) iş günü müddətində həmin layihəni müfəttişlə müzakirə edib:

4.7.1. qüsurun aradan qaldırılmalı olduğu qənaətinə gəldikdə məktub ərizəyə əlavə olunmuş sənədlərlə birlikdə xəbərnaməli sifarişli poçt vasitəsilə sifarişçiyə göndərilir;

4.7.2. qüsurun aradan qaldırılmalı olduğu qənaətinə gəlmədikdə, onun dərkənarına uyğun olaraq müfəttiş həmin dərkənarda qeyd edilən qüsurun aradan qaldırılması üçün tədbirlər görür.

4.8. Aşkar olunmuş qüsur aradan qaldırıldıqdan sonra daxil olmuş ərizəyə bu Qaydalara uyğun olaraq yenidən baxılır.

4.9. İBA-nın verilməsi və ya ondan imtina olunması ərizə Filiala daxil olduqdan 7 (yeddi) iş günü ərzində həyata keçirilir.

## 5. Hesabatlılıq

5.1. Filiallar tərəfindən ay ərzində verilmiş İBA-lar barədə hər növbəti ayın 2-dək (ikisinə) bu Qaydaların 2 nömrəli Əlavəsinə uyğun olaraq TMD-yə aylıq hesabat təqdim edilir.

5.2. İBA-ların verilməsinə dair (eyni zamanda İBA-nın ləğv edilməsinə dair) filiallar tərəfindən təqdim edilmiş hesabatlar əsasında Agentlik üzrə verilən İBA-ların siyahısı TMD tərəfindən tərtib edilir və hər ay Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə, hər rüb isə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə göndərilməsi təmin edilir.

**"Elektrik qurğularının istismara buraxılış aktının verilməsi Qaydaları"na 1 nömrəli Əlavə**

BAXIŞ AKTI №_____

Baxışın tarixi: ______________________________________________

Baxış keçirilən obyektin adı və ünvanı:

______________________________________________

Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (EMTA)

______________________________________________

elektrik qurğularının istismara buraxılış aktının verilməsi barədə müraciət əsasında sənədlərlə tanış olub, yerində baxış zamanı müəyyən etdik:

1.Tikinti-quraşdırma işlərinin layihəsi _____________tərəfindən verilmiş ___ №-li, ____________ _____ tarixli texniki şərtə əsasən hazırlanmışdır:

1.1. Layihədən kənaraçıxma _______ tərəfindən _________ tarixdə _______ nömrəsi ilə razılaşdırılmışdır;

1.2. Texniki şərtdə icazə verilən güc _________ kVt (kVA).

2. Elektrik qurğu və avadanlıqların texniki göstəriciləri:

2.1. Qida mənbəyi ______________________________________;

2.2. Qidalandırıcı _______ xətti _____________, gərginliyi ______kV, xətlərin sayı ______ədəd, uzunluğu ______m, kabelin (naqilin) tipi və en kəsiyi ________;

2.3. Kabel birləşmələrinin ______ uzunluğu ___m, kabelin tipi və en kəsiyi ___;

2.4. Xəttin əvvəlində qoyulmuş mühafizə ______________________;

2.5.Yarımstansiyanın tipi______ , gərginliyi _____kV, sayı _______ ədəd, Transformatorun tipi _______, gücü ___ __kVA, sayı_______ədəd.

Birinci və ikinci dolaq gərginlikləri _____kV, zavod №-si _____________;

2.6.Mühafizə__________________________________________;

2.7. Ehtiyat qida mənbəyi (dizel generator, akkumulyator batareyaları) Tipi ________, gücü_______kVt (kVA), gərginliyi ___kV, sayı______ədəd, zavod nömrəsi_________;

2.8. Kompensasiya qurğuları (mühərrik, statik kondensator batareyaları) Tipi ______, gərginliyi ______ kV, gücü ______ kVAr, sayı _______ ədəd;

2.9. Elektrik hesabat sayğaclarının quraşdırıldığı yer _______________;

Sayğacın tipi ___, №-si ______, göstərişi ___, əmsalı ____________;

Sayğacın tipi _____, №-si _____, göstərişi ____, əmsalı ___________.

3. ____ tarixli _________ nömrəli aktla obyekt tikinti-quraşdırma işlərini aparan təşkilatdan sifarişçiyə təhvil verilib.

Baxışın nəticələri barədə qeydlər:

______________________________________________

______________________________________________

______________________________________________

İmzalar:

“Elektrik qurğularının istismara buraxılış aktının verilməsi Qaydaları”na
2 nömrəli Əlavə

20__-ci ilin ___ ayı ərzində Agentliyin ________ filialı tərəfindən verilmiş
İBA-lar barədə
HESABAT

| S/S | Ərizənin təqdim edilməsi tarixi və d/o №-si | İBA verilən elektrik qurğusunun yerləşdiyi obyektin adı | İBA verilən elektrik qurğusunun yerləşdiyi obyektin ünvanı | Tikinti-quraşdırma işlərini aparan təşkilatın adı | Layihəni hazırlayan təşkilatın adı | Texniki şərtin №-si və tarixi | Qoşulma nöqtəsi, baş yarımstansiya, gərginlik (kV) | Obyektin ümumi gücü (güc artımı olduqda ayrı-ayrılıqda mövcud və artırılan güc) (kVt, kVA) | Qoşulan transformatorların sayı və gücü (ədəd x kVA) | İBA sahibinin adı | İstismara buraxılış aktının №-si və tarixi | Ləğv edilmiş istismara buraxılış aktının nömrəsi və tarixi | İstismara buraxılış aktının verilməsində cavabdehlik daşıyan müfəttişin adı və soyadı |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | |